**UOT: 336**

# ŞƏRQİ ZƏNGƏZURDA TURİZMİN İNKİŞAFININ İNVESTİSİYA PROBLEMLƏRİ

**Gülnaz NƏSİBOVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 6 fevral 2023; çapa qəbul edilmişdir: 7 mart 2023; online-da çap edilmişdir: 30 mart 2023.*

*Received: 6th of February, 2023; accepted: 7th of March, 2023; published online: 30th of March, 2023.*

***Açar sözlər:** qeyri-neft sektoru, prioritet sahələr, turzim, investisiya*

## Giriş

Məqalədə Şərqi Zəngəzur iqtisadi rayonunda turizm potensialı, turizm potensialından istifadə üçün lazımi infrastrukturun qurulması və bütün bu işlərin görülməsi üçün lazım olan investisiyanın cəlb edilməsi problemləri təhlil edilir.

Tədqiqatda əvvəlcə Şərqi Zəngəzur iqtisadi rayonu, onun tarixinin xülasəsi, hər iki Qarabağ müharibəsi, bölgənin coğrafiya və reylefi, iqtsadi və turizm potensialından bəhs edilmişdir.

İkinci Qarabağ müharibəsindəki qələbədən sonra Azərbaycanın regional gücü daha da artmışdır. Hal-hazırda regionda olan siyasi və iqtisadi vəziyyət dünya dövlətlərinin və transmilli şirkətlərin diqqətindədir. Bu Azərbaycan hökümətinin uğurlu xarici siyasətinin nəticəsidir.

Hökümətin apardığı uğurlu siyasət nəticəsində investisiya mühitinin əsas 4 şərti (siyasi, iqtisadi, hüquqi və sosial) normal hala gəlməkdədir. Xarici investisiyanın cəlb edilməsi üçün tələb və şərtlər müəyyənləşdirilir, Şərqi Zəngəzurun beynəlxalq arenada tanıdılması və transmilli şirkətlərin regiona cəlb edilməsi mövzusunda geniş işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncamının 2.1-ci bəndində "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda iqtisadiyyatın şaxələnməsinə və investisiyaların cəlb olunmasına vergi siyasətinin effektiv dəstəyinin təmin edilməsi və investisiya mühitinin daha da yaxşılaşdırılması üçün bir sıra tədbirlər nəzərdə tutulur: İşğaldan azad edilmiş ərazilərin inkişafı üçün vergi təşviqlərinin tətbiq olunması; Yeni istehsal sahələrinin qurulmasına görə kapital qoyuluşlarına uyğun olaraq mənfəət vergisinə güzəştlərin verilməsi; Turizmin inkişafı üçün vergi təşviqlərinin verilməsi və s.

44 günlük müharibə nəticəsində işğaldan azad olunmuş Qarabağ iqtisadi rayonun ərazilərinin də turizm potensialının mövcud olması həmin ərazilərin turizm sektoruna inteqrasiyasına imkan verir. Ölkənin dayanıqlı inkişafında diversifikasiyanın əhəmiyyəli olduğu kimi turizm sektorunun dayanıqlı inkişafına nail olunmasına təsir edən bir sıra faktorlar da mövcuddur. Və bu faktorların gücləndirilməsi üçün müxtəlif mexanizmlərin

* *magistrant, BAAU*
e-mail: nesibovagulnaz511@gmail.com

mövcud olması mövzunun araşdırması baxımından olduqca aktual məsələ olmasından xəbər verir.

**Şərqi Zəngəzur iqtisadi rayonunda turizm potensialı.**

Şərqi Zəngəzur iqtisadi rayonu Azərbaycan Respublikasının Prezidenti, İlham Əliyevin 7 iyul 2021-ci il tarixli qərarı ilə yaradılmışdır. İqtisadi rayon, inzibati olaraq Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarından ibarətdir.

İqtisadi rayonunun turizm potensialı təkcə Azərbaycanın yox, ümumilikdə regionun əksər bölgələrindən olduqca zəngindir. Rayonda turizmin bir çox növünün inkişafı üçün geniş potensial vardır. Azərbaycan hökümətinin strukturuları tərəfindən regionda turizmin inkişaf üçün müxtəlif dövlət proqramları hazırlanmışdır.

Təbii ehtiyatlar regionun ən mühüm və qorunan potensialıdır. Meşələr, çaylar, göllər və buzlaqlar kimi bir çox dəyərli təbii sərvətlər bölgədə yerləşir. Dağların əksəriyyətinin 1500-2000 metr hündürlüyündə zirvələri vardır. Şərqi Zəngəzurun dağlarının yüksək hissələri sıx meşələrlə örtülüdür. Xüsusilə bölgənin iqlim xüsusiyyətləri, onun təbii quruluşu qeyri-adi biomüxtəlifliyi təmin etmişdir.

İqtisadi rayon bir çox bitki sortları baxımından zəngin örtüyə malikdir. Bu ərazilər "Biogenetik qoruq" xarakterini göstərməkdədir. Biogenetik qoruq əraziləri unikal qorunan ərazilərdir və dünya miqyasında elmi turlar üçün böyük əhəmiyyət kəsb edir.

Hündür dağları, dərin dərələri, bol yağıntıları, zəngin və qidalı bitki örtüyünə görə rayon bir çox vəhşi heyvanların yaşayış yerinə, köçəri quşların uzun müddət məskunlaşdığı ərazilərdən birinə çevrilmişdir.

Şərqi Zəngəzur bölgəsi tarix boyu müxtəlif sivilizasiyalara və mədəniyyətlərə ev sahibliyi etmişdir. Qafqazın bir hissəsi olaraq Asiya ilə Avropa arasında keçid bölgəsi olmuşdur. Bu vəziyyət zəngin tarixi keçmişə və mədəni mozaikaya səbəb olmuşdur.

Region müxtəlif coğrafiyalar arasında keçid zonasıdır. Müxtəlif dövlətlərin hökmranlığı müvafiq olaraq müxtəlif mədəniyyətlərin formalaşmasına səbəb olmuşdur. Çoxsaylı memarlıq əsərləri adıçəkilən mədəniyyətlərin irsidir. Mülki memarlıq əsərləri körpülər, məscidlər, kilsələr, inzibati binalar və qalalar bölgənin daşınmaz mədəniyyət inventarını təşkil edir. Onların əksəriyyəti təbiətlə inteqrasiya olunmuşdur. Bölgəyə özünəməxsus keyfiyyət verən amillərdən biri də mədəni və təbii dəyərlərin iç-içə olmasıdır.

**Şərqi Zəngəzurun turizm potensialdan istifadənin infrastruktur təminatı**

Turizmin inkişafında və turizm fəaliyyətinin həyata keçirilməsində ətraf mühit böyük əhəmiyyət kəsb edir. Bu fəaliyyətlərin icrası zamanı turistlərin sayının artması və təbii və mədəni sərvətlərdən daha çox turist tərəfindən istifadə edilməsi infrastruktur və ekoloji problemlərin artmasına səbəb olur. Bu problemlərin ən mühüm səbəbi turizm istehlakçılarının artan tələbatını qarşılamaq üçün planlaşdırılmamış infrastruktur investisiyalarıdır.

Turizm işinin səmərəli təşkil oluna bilməsi üçün digər infrastruktur işləri ilə yanaşı nəqliyyat yollarının nizama salınması da xüsusi diqqət yetirilməlidir.

Artıq işğaldan azad olunmuş ərazilərdə inzibati idarəetmə orqanlarının bərpası və nəqliyyat, enerji və kommunikasiya infrastrukturunun yaradılması istiqamətində zəruri işlər görülür, həmcinin kənd təsərrüfatının bərpası və inkişafı ilə bağlı dövlət başçısı tərəfindən müvafiq dövlət qurumlarına tapşırıqlar verilmişdir.

Turizm strategiyasının əsasını turizm potensialından istifadə, təşviq və tənzimləmə siyasəti mexanizmləri təşkil edir.

Artıq işğaldan azad olunmuş ərazilərdə inzibati idarəetmə orqanlarının bərpası və nəqliyyat, enerji və kommunikasiya infrastrukturunun yaradılması istiqamətində zəruri

işlər görülür, həmcinin kənd təsərrüfatının bərpası və inkişafı ilə bağlı dövlət başçısı tərəfindən müvafiq dövlət qurumlarına tapşırıqlar verilmişdir.

Nəqliyyat turizm sənayesində həlledici əhəmiyyətə malikdir, çünki o, təklif və tələbi birbaşa əlaqələndirir. Turizmdə nəqliyyatın rolu əsasən əlçatanlığı təmin etməkdir. Bir çox alimlər tərəfindən geniş şəkildə iddia edilmişdir ki, əlçatanlıq olmadan turizm sadəcə olaraq baş verə bilməz.

Əlçatanlıq təkcə turistlərin təyinat yerlərinə çatma qabiliyyətini təmin etməklə deyil, həm də onlar gəldikdən sonra təyinat məntəqələrində nəqliyyat xidmətlərindən istifadə etməklə müəyyən edilir. Bu əlçatanlıq amilləri səyahət zamanı turistlərin təəssüratlarına təsir edir və destinasiyaların ümumi cəlbediciliyinin müəyyənedici amilləri kimi xidmət edir.

Əlçatanlığına təsir edən 12 nəqliyyat amili mövcuddur:

1. Nəqliyyat üsulları – sürət, rahatlıq və təhlükəsizlik kimi nəqliyyat seçimlərinin keyfiyyəti;
2. Nəqliyyat şəbəkəsinə qoşulma – əlaqə və yol əlaqələrinin sıxlığı və ya təyinat məntəqələri arasında səyahətin birbaşalığı;
3. Səyahət xərcləri və ya sərfəli qiymət;
4. Mobillik: səyahət sürəti və məsafəsi, tutumu və ya səyahət vaxtı;
5. Nəqliyyat sistemi daxilində əlaqə və rejimlərin inteqrasiyası;
6. Nəqliyyat tələbi;
7. İstifadəçi məlumatı – mobillik və əlçatanlıq seçimləri haqqında etibarlı məlumatın mövcudluğu;
8. Mobillik əvəzediciləri – fiziki səyahət üçün telekommunikasiya və çatdırılma xidmətlərini əvəz edənlər;
9. Nəqliyyatın idarə edilməsi;
10. Torpaqdan istifadə amilləri;
11. Səyahət fəaliyyətlərinin prioritetləşdirilməsi;
12. Əlçatmazlıq və ya izolyasiya dəyəri.

Bu əlçatanlıq amillərinin təkmilləşdirilməsi turizm məkanının iqtisadi uğuruna töhfə verə bilər.

Yeni nəqliyyat növləri məsafə-səyahət imkanlarını, səyahət sürətini, səyahət vaxtını və rahatlıq səviyyəsini təkmilləşdirməklə turizm sənayesində inqilabi işlər həyata keçirmişdir. Dəmir yolunun tətbiqi müasir turizmin əsasını qoydu, ardınca avtomobil inqilabı regional və regionlararası turizm üslubunu dəyişdirdi. Beynəlxalq turizm daha sonra uzun məsafəli hava nəqliyyatında yeniliklər sayəsində mümkün oldu ki, bu da əvvəllər əlçatmaz olan istiqamətlərdə turizmə imkan verdi.

Vaxta qənaət etdiyi üçün uzun məsafəli səyahətlər üçün enerji tutumlu motorlu nəqliyyat növlərinə üstünlük verilsə də, velosiped sürmək və ya təyinat yerində piyada getmək turistlərə istirahət və ya macəra kimi arzu etdikləri yerində təcrübələr təqdim edə bilər.

Ümumiyyətlə, turizm məkanının əlçatanlığı nəqliyyat infrastrukturu şəbəkəsini inkişaf etdirməklə və ya şəbəkə ilə turizm obyektləri arasında əlaqəni yaxşılaşdırmaqla da yaxşılaşdırıla bilər. Məsələn, nəqliyyat şəbəkəsi daxilində iki yer arasında birbaşa əlaqə əlavə etməklə turistin mənşə yerindən istənilən təyinat yerinə qədər olan məsafəni azaltmaq olar. Əlaqələri genişləndirən və ya turistlər üçün mərkəzi avtobus və ya qatar stansiyalarının yaxınlığında yaxşı təşkil olunmuş taksi əlaqəsini təmin edən fəaliyyətlər də nəqliyyat şəbəkəsi və yaşayış yerləri arasında əlaqəni yaxşılaşdıra bilər.

**Şərqi Zəngəzurda turizm sektoruna investisiyanın cəlb edilməsi**

Qloballaşan dünyada turizm də daxil olmaqla xidmət sektoruna birbaşa investisiya-

ların əhəmiyyətli dərəcədə artıdığı görünməkdədir. Buna görə də, 1990-cı illərdəki liberallaşma hərəkatlarından sonra xidmət sektorunda birbaşa investisiyalar emal sənayesindən qat-qat çox artmış və bu müvafiq sektorlarda məhsuldarlığın artmasına səbəb olmuşdur.

Qloballaşma prosesində birbaşa xarici investisiyalar mühüm yer tutur. Birbaşa xarici investisiyaların açılmasında, əmanət çatışmazlığının aradan qaldırılmasında, xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasında və investisiya çatışmazlığının aradan qaldırılmasında mühüm rol oynayır.

Azərbaycan kimi inkişaf etməkdə olan bir ölkədə birbaşa xarici kapitalın turizm sektoruna sərmayə qoyması üçün ilk növbədə ölkədə iqtisadi və siyasi sabitliyin təmin edilməsi ilə yanaşı, bazarların cəlbediciliyi, xarici dövlətlərlə işləmək istəyən yerli investorların olması, rəqabətli vəziyyət, sosial mühit, demoqrafik faktorlar və paylama kimi faktorlar da mövcud olmalıdır.

Azərbaycan böyük bir inkişaf sıçrayışındadır. Ölkəmizin yeraltı və yerüstü sərvətlərinə, ixtisaslı ucuz işçi qüvvəsinə baxmayaraq, ölkəmiz öz inkişaf səylərində lazım olan xarici kapital imkanlarından lazımi şəkildə istifadə edə bilmir. Hazırkı kapital yığımımız təhsil, sənayeləşmə, turizm sənayesi və məşğulluq problemlərimizi tez həll etmək üçün kifayət etmir.

Son illərdə dinamik bir quruluş qazanan Azərbaycan turizm sənayesi hər il bir əvvəlki ilə nisbətən yüksələn bir qrafik göstərməkdədir. Turizm kapitalının və sahibkarlığa dövlət tərəfindən verilən dəstək və təşviqlərlə yanaşı, Azərbaycanın beynəlxalq arenada daha yaxşı tanıdılması istiqamətində görülən səylər nəticəsində turizm sənayesi böyük irəliləyiş göstərmişdir. Lakin bu gün gəldiyimiz məqamda mövcud potensialdan kifayət qədər yararlandığımızı söyləmək mümkün deyil. Baxmayaraq ki, Azərbaycan hər zaman turistik təklif məlumatları baxımından beynəlxalq turizm tələbi üçün hədəf olmuşdur, turizm bölgələrimizin əksəriyyətində hələ də böyük investisiya çatışmazlığı vardır. Bu kəsiri ödəmək üçün maliyyə resurslarımız kifayət qədər azdır. Bunun üçün biz hər fürsətdən ağılla istifadə etməli, sahibkarlıq gücünün, xarici kapitalın yaradıcılıq qabiliyyətindən yararlanmalıyıq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirmişdir ki, işğaldan azad edilmiş zonalarda 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə və inzibati bina, 700 tarix və mədəniyyət abidəsi, 927 kitabxana, 800 mədəniyyət ocağı, 85 musiqi və incəsənət məktəbi olmasına baxmayaraq 22 muzey, 4 rəsm qalereyası, 4 kinoteatr, 100 min eksponatın olduğu 2 konsert zalı dağıdılıb. Onların bərpası üçün lazım olacaq milyardlarla investisiyanın uğurla maliyyələşdirilməsi üçün Qarabağın Dirçəliş Fondu yaradılıb.

Davamlı olaraq turizm ehtiyyatlarının təbliği üçün marketinq sahəsinə investisiyalar yönəltmək öz müsbət effektini ölkənin turizm sektorun üzrə cəlb olunmuş turistlərin sayının artması hesabına dayanıqlı turizmin inkişafına nail olması ilə göstərir

Ancaq regiona investisiya cəlb etmək üçün sadəcə Qarabağ Dirçəliş Fonduna güvənmək olmaz. Yerli və xarici mütəqil investisiyanı bölgəyə cəlb etmək üçün, dövlət ərazidə fəaliyyət göstərəcək sahibkarlara vergi güzəştləri tətbiq etməlidir.

## ƏDƏBİYYAT


1. Əlirzayev Ə. Turizmin iqtisadiyyatı və idarə edilməsi. Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2011, 494 s.
2. Hüseynov İ., Əfəndiyeva N. Turizmin əsasları. Bakı: Mars-Print nəşriyyatı, 2007, 442 s.
3. Mükərrəmoğlu M. Azərbaycanda turizmin inkişafı // Xalq qəzeti, 27 sentyabr 2007, s. 4.
4. Fernando S., Bandara J., Smith C. Regaining Missed Opportunities: the Role of Tourism in Post-war Development in Sri Lanka // Asia Pacific journal of Tourism Research, 18 (7), 2012, s. 685-711.

5. Mukosa F., Katebe M., Mbewe S., Muhyila M. The role of Marketing in Zambia's Economic Diversification Process // International Journal of Management and Commerce Innovations, 2020, p. 1260-1264.
6. Зорин И., Кварталнов В. Энциклопедия туризма. Москва: Финансы и статистика: 2000, 368 с.
7. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı, 02.02.2021 (https://president.az/az/articles/view/50473)
8. https://qazet.az/az/article/qarabag-ve-serqi-zengezurdaki-yol-layiheleri-baredemelumat-aciqlanib-video123
9. https://www.unwto.org/sustainable-development
10. https://president.az/az/articles/view/50474
11. http://dx.doi.org/10.1080/10941665.2012.695284
12. https://xalqqazeti.com/az/news/101842
13. http://www.shusha-ih.gov.az/page/10.html

***Summary***

***Gulnaz Nasibova***

***Investment Problems of Tourism Development in the Eastern Zangazur***

Tourism is one of the important sectors of the economy of every country. In many countries, it is among the main sources of income. In the conditions of successful development, tourism brings certain advantages related to the economy of different countries and especially its importance for the republic. The increase in the level of socio-economic development of each region is highly dependent on the use of the potential in the provision of tourism services.

In addition, the improvement or creation of new materials, equipment, technological processes, products, services and methods radically changes and significantly improves the efficiency of not only the tourism sector, but also the economy as a whole. The successful development of one or another area of the economy, in many cases, depends on the innovation processes that occur from time to time, these processes do not only cover the science and technical-technological field, but are also closely related to economic and social changes.

There is no doubt that East Zangezur will occupy a very important place in the tourism income of Azerbaijan in the future based on its tourism potential, the planned approach of the state and the investments involved.

There is no doubt that East Zangezur will occupy a very important place in the tourism income of Azerbaijan in the future based on its tourism potential, the planned approach of the state and the investments involved.

After ensuring a great return to East Zangazur, it is necessary to provide loans with lower interest rates and more convenient payment terms to individuals and businesses who want to operate in the tourism sector in order to increase the self-employment level of the local population.

In this case, settlement in the region will increase, and the process of self-employment will be implemented more intensively. Considering the tourism potential of the region, it should not be neglected in the development of tourism in parallel with industrialization. It also means protecting nature. The ability of tourism to stimulate economies by creating employment, attracting foreign investment, earning foreign exchange and creating added value at national, regional and local levels is well known. However, tourism operates in a fast-growing and highly competitive global market, characterized by robust growth in emerging tourism economies.

***Keywords:*** *non-oil sector, priority areas, tourism, investment*

***Резюме***

***Гюльназ Насибова***

***Инвестиционные проблемы развития туризма в Восточном Зангазуре***

Туризм является одной из важных отраслей экономики каждой страны. Во многих странах это один из основных источников дохода. В условиях успешного развития туризм приносит определенные преимущества, связанные с экономикой разных стран и особенно его значением для республики. Повышение уровня социально-экономического развития каждого региона в значительной степени зависит от использования потенциала в сфере оказания туристических услуг.

Кроме того, совершенствование или создание новых материалов, оборудования, технологических процессов, продуктов, услуг и методов коренным образом меняет и значительно повышает эффективность не только туристической отрасли, но и экономики в целом. Успешное развитие той или иной области экономики во многих случаях зависит от инновационных процессов, происходящих время от времени, эти процессы охватывают не только науку и технико-технологическую область, но и тесно связаны с экономические и социальные изменения.

Нет сомнений в том, что Восточный Зангезур в будущем займет очень важное место в доходах от туризма Азербайджана, исходя из его туристического потенциала, планомерного подхода государства и привлекаемых инвестиций.

Нет сомнений в том, что Восточный Зангезур в будущем займет очень важное место в доходах от туризма Азербайджана, исходя из его туристического потенциала, планомерного подхода государства и привлекаемых инвестиций.

После обеспечения большой отдачи Восточному Зангезуру необходимо предоставлять кредиты с более низкими процентными ставками и более удобными условиями оплаты физическим и юридическим лицам, желающим работать в сфере туризма, с целью повышения уровня самозанятости местного населения.

В этом случае расселенность в регионе увеличится, а процесс самозанятости будет осуществляться интенсивнее. Учитывая туристический потенциал региона, не следует пренебрегать развитием туризма параллельно с индустриализацией. Это также означает защиту природы. Хорошо известна способность туризма стимулировать экономику за счет создания рабочих мест, привлечения иностранных инвестиций, получения иностранной валюты и создания добавленной стоимости на национальном, региональном и местном уровнях. Однако туризм работает на быстрорастущем и высококонкурентном глобальном рынке, характеризующемся устойчивым ростом развивающихся экономик туризма.

***Ключевые слова:*** *ненефтяной сектор, приоритетные направления, туризм, инвестиции*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Məmmədov Elşad Yaqub oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.